**Aysel BAYRAMOVA**
**AMEA Nizami Gəncəvi adına Milli**
**Azərbaycan Ədəbiyyatı Muzeyi**
**isgandarlizahrafidan192@gmail.com**

# ƏZİZƏ CƏFƏRZADƏ ƏDƏBİ İRSİNDƏ AZƏRBAYCAN QADIN ŞAİRLƏRİ

Xalqın məhəbbətini, sevgisini həqiqi mənada qazanmış Əzizə xanım Cəfərzadə ədəbiyyat tariximizin ən güclü yazıçı qadınlarındandır. Məhz buna sübut olaraq onun 2001-ci ildə "Azərbaycan anası" və Xalq yazıçısı" kimi yüksək adlara və "Şöhrət" ordeninə layiq görülməsi danılmaz faktdır. Ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor, Azərbaycan Yazıçılar Birliyinin üzvü Əzizə xanımın yaradıcılığı olduqca genişdir. O, eyni zamanda tədqiqatçı alim kimi fəaliyyət göstərmişdir. Tarixi romanlarından əlavə "Azərbaycan qadın şairələri antologiyası" kitabında orta əsrlərdən bu yana bir çox aşıq və şair qadınlar haqqında məlumat vermiş, bir növ, ensiklopediya şəklində onları tanıtmağa çalışmışdır. Bu kitabın ön söz müəllifinin məhz şairə Nigar Rəfibəylinin olması da buna bariz nümunədir. Kitabda Azərbaycan qadınının çoxəsrlik fəaliyyətindən bəhs olunur. Burada səkkiz yüz il əvvəl yazıb-yaratmış M.Gəncəvi, sonrakı dövrlərdə Natəvan, Heyran xanım, Fatma xanım Kəminə, Qürrətüleyn, Aşıq Pəri, rübai, qoşma, gəraylı, qəzəl, bayatı janrlarıyla ədəbiyyatımızı zənginləşdirən qadınların yaradıcılığı öz əksini tapır. Daha çox qəmgin, göz yaşı dolu şeirlər yazan bu qadınlar (Şamaxı zəlzələsinin şahidi olmuş şamaxılı Pərinaz kimi) dövrlərinin bir çox müsibətlərinə şahid olmuş və bunları öz şeirləri ilə dilə gətirmişlər.

Şəhərin dam öyləri,
Əsil tərxam öyləri
Zəlzələ viran qoydu,
Dağıldı şam öyləri.

Qarabağ incisi böyük Natəvanın on yeddi yaşında dünyadan köçən oğlu Mirabbasa yazdığı  ağılar buna misaldır. Ondan iyirmi yeddi il sonra Məşədixanım Leyli Natəvan qəzəlləri əsasında qadınların acı taleyini dilə gətirən şeirlər, onların deyə bilmədikləri acıları yazaraq qələmə almışdır.

Azərbaycan qızı, İbrahimxəlil xanın qızı Ağabəyim ağanın İran hökmdarı Fətəli şaha ərə verilərək vətənindən didərgin düşməsi, bununla da qızıl qəfəsə salınaraq qəlbinin dərinliklərində çəkdiklərini poeziya dili ilə insanlara çatdırması da nümunələrdən biridir.

Beləliklə, hər şeir bir insan, bir qadın ağrı-acısı, qadın hissləri və bir taledir. Məhz bu antologiya Əzizə xanımın Azərbaycan qadınını dərindən anlaması, onu anlatması üçün əsrarəngiz bir vasitə olmuşdur. Burada təkcə qadınların acıları deyil, onların məğrurluğu, dövrə, əsarətə meydan oxuyaraq savad almağa meyilliyi, cəsarəti tam mənası ilə əks olunmuşdur. Ədəbiyyatımızda ilk şairə hesab olunan Gəncəli Məhsəti xanımın qadın hüquqsuzluğuna qarşı mübarizə dolu rübai janrlı şeirlərinin, şəhər sənətkarlarını tərənnüm edən şəhraşublarının davamçıları olan “doxtərlər” bunu sübut edir.

Yolunda həyatım bir zillət oldu,
Bir anlıq vüsalın min afət oldu.
İntizar süfrəndə könlümün qanı
O şirin ləbinə bir şərbət oldu.

*(Rəziyyə  xanım Gəncəvi)*

Əzizə xanımın qadın qəhrəmanları hansısa uydurma nağıl obrazları deyil, tarixin müəyyən dövrlərində yaşayıb-yaratmış incə qəlbli, məğrur türk qadınlarıdır.

**Aysel Bayramova**

## AZERBAIJANI POETESS IN THE LITERARY HERITAGE OF AZIZA JAFARZADEH

***Summary***

"The Azerbaijani woman-poetesses in the creative activity of Aziza Jafarzadeh it" is spoken in the article the problems of opression, restrictions and bondage of Azerbaijani woman in different stages of history. In the book entitled "Antology of Azerbaijani woman poetesses" we touch upon the problem of Azerbaijani women's lawlessness, life troubles and also give information about their services for the development of Azerbaijan literature.